# ŞUŞA

# Azərbaycan və İtaliya gənc memarlarının gözü ilə

3-8 dekabr tarixlərində Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin tərəfdaşlığı, Azərbaycan Memarlıq və İnşaat Universiteti (AzMİU) və “Davam” Gənclər Hərəkatının birgə təşkilatçılığı ilə keçirilən “Şuşa İli” çərçivəsində Azərbaycan və İtaliya gənc memarlarının Bakı Forumu keçirilib. Forum çərçivəsində İtaliyanın memarlıq təhsili üzrə nüfuzlu universitetlərində təhsil alan 15 gənc memar ölkəmizə gəlib. Forum AzMİU-da bu universitetin professor-müəllim heyəti tərəfindən italyan və ingilis dillərində ikigünlük emalatxana çalışmaları ilə davam edib. Emalatxana çalışmaları zamanı Azərbaycan və İtaliya gənc memarları qeyri-formal təhsil metodikasına uyğun olaraq qarışıq formada 10 komandaya ayrılıblar.



## “Tələbələrin peşəkar karyerasında Şuşa xüsusi bir istiqamət olacaq”

## “İşlədiyimiz layihəni Şuşada əyani olaraq görmək istərdim...”

Azərbaycan haqqında təəssüratları yalnız internet məlumatlarından ibarət olduğunu deyən Jasmin Mesaud AzMİU-da təəccübləndiyini bildirdi: “Mən İtaliya Berqamo Universitetində memarlıq üzrə oxuyuram. Açıq sözlü olmağı xoşlayıram və bu dəfə də xarakterimə sadiq qalacağam. Azərbaycan haqqında məlumatım demək olar ki, yox idi. Bura dəvət olunanda xeyli məlumat öyrəndim. Təəssüf ki, yanlış məlumatlar olub. Mən elə bilirdim ki, burada birgə işləyəcəyimiz Azərbaycan tələbələrinin böyük əksəriyyəti oğlan olacaq, lakin demək olar ki, üstünlük bizdədir. Burada qadınların memar olmasına qarşı çıxmırlar. Hətta sonradan mənə dedilər ki, bu universitetin rektoru da xanımdır. Qadınların memar olması, cəmiyyətdə onlara bu cür hörmətlə yanaşılması çox xoşdur. Anladım ki, bizə tanıdılan Azərbaycan buradakı Azərbaycan deyil. İnsanlar qədər şəhər və mühit də gözəldir. Mən ətrafa memar kimi baxıram - burada, Bakıda Şərq ilə Qərbin harmoniyası yaradılıb”.

Jasmin Azərbaycandan olan memar dostları ilə birgə işlədiyi layihəni əyani görmək istəyir və fürsət olduqca ölkəmizə yenidən gələcəyini dedi:-“AzMİU-nun müəllimləri ilə işləmək imkanımız oldu. Demək olar ki, 2 gün müddətində emalatxanadan çıxa bilmədik, müəllimlərimiz də bizi tək qoymadılar. Buradakı tələbələrlə söhbət etdim, onların dərslikləri, öyrəndikləri ilə tanış oldum. Deyərdim ki, İtaliya ilə elə də fərq yoxdur. Hətta fürsətim olsaydı, bir müddət Bakıda qalıb bu universitetdə də oxuyardım. İşlədiyimiz layihəni Şuşada əyani olaraq görmək istərdim. Dediklərinə görə Şuşa çox gözəl şəhərdir, orada karvansaray var. Biz həmin karvansarayı möhtəşəm muzeyə çevirmişik, hər detalı incəliyinə qədər nəzərə almışıq”.

## “Artıq razılığa gəlmişik - Jasmin Şuşanın vurğununa çevrilib...”

Gənc memarlar karvansarayın yeni dizaynını hazırlayarkən şəhərin ruhuna və kompleksin orijinal memarlıq detallarına həssaslıqla yanaşıblar. Bu işdə Jasminin komanda yoldaşları, AzMİU-nun tələbələri Cavid Cabbarov və Leyla Əfəndiyeva xüsusi canfəşanlıq göstəriblər. Cavid hesab edir ki, müasirliklə keçmiş bir-birini tamamlamalıdır: “Jasmin daha çox müasirliyə meyl edir. Bizə İtaliyadan, Avropanın digər yerlərindən bildiyi nümunələri göstərir. Biz izə ona Şuşanın gözəlliyindən, özünəməxsusluğundan bəhs edirik. Artıq razılığa gəlmişik - Jasmin Şuşanın vurğununa çevrilib. Bizim layihə Şuşa kimi orijinal olacaq. Bununla belə, birgə işləmək bizim üçün böyük stimul oldu. Hər birimiz çalışırıq ki, yaradıcılığımızın ən gözəl çalarını, ən yaxşı hesab etdiyimiz detalları layihəyə tətbiq edək və heç bir boşluq saxlamayaq. Düşünürəm ki, bu layihə və italyan tələbələrlə birgə iş heç vaxt yaddımdan çıxmayacaq, ömrümün ən xoş xatirəsi olacaq”.

## “Əsas istəyimiz tələbələrin bir araya gəlməsi idi”

AzMİU-nun memarlıq konstruksiyaları və abidələrin bərpası kafedrasının müdiri professor Səbinə Hacıyevanın fikrincə, layihənin əsas missiyası İtaliya və Azərbaycan tələbələrini bir araya gətirmək, onların fikir mübadiləsini təmin etmək olub:“Bizim İtaliyanın memarlıq təhsili üzrə universitetləri ilə çox sıx əlaqəmiz var. Bu layihə həm də həmin əlaqələrin nəticəsidir. Əsas istəyimiz tələbələrin bir araya gəlməsi idi. Bu, onlara müqayisə imkanı yaradır, fikir mübadiləsi aparırlar. Düşünürəm ki, layihə öz məqsədinə çatdı. Bunu sərgidə yer alan eskizlərdən də görmək olur. Biz onlardan Şuşaya aid qeyri-adi, möhtəşəm layihə gözləmirdik, istəyimiz onların Şuşa haqqında düşünməsi, birgə fəaliyyət nəticəsində yeni ideyalarla çıxış etmələri idi. Əminəm ki, bu layihə tələbələrimizin yaddaşında silinməz iz buraxacaq, bəlkə də onların peşəkar karyeralarında Şuşa xüsusi bir istiqamət olacaq”.

**Jasmin Mesaud:** “İşlədiyimiz layihəni Şuşada əyani olaraq görmək istərdim. Dediklərinə görə Şuşa çox gözəl şəhərdir, orada karvansaray var. Biz həmin karvansarayı möhtəşəm muzeyə çevirmişik, hər detalı incəliyinə qədər nəzərə almışıq”.

**Emanuella Monenti:** “Düşünürəm ki, hər tikilinin ruhu qorunub saxlanılmalıdır. Ona görə də biz çalışırıq ki, meydanda yerləşdirilən hər bir detal mühitə uyğun olsun. Bu işdə bizə müəllimlər çox kömək oldu”.

**İbrahim Dahab:** “Azərbaycan memarlığının özəlliyi var. Düşünürəm ki, memar olaraq Azərbaycan memarlığını öyrənməyim vacibdir. Burada yolun bir tərəfində Şərqi, digər tərəfində Qərbi, yolun başında isə bu iki istiqamətin ahəngini, möhtəşəm mənzərəni görürsən”.

## “Bu şəhər sanki qartal yuvasıdır...”

Gənc memarlar təkcə karvansarayla bağlı layihə hazırlamır, onlar Gövhər Ağa Məscidi, şəhər meydanları, yollar, Şuşanın sosial obyektləri ilə bağlı eskizlər də hazırlayırlar. İtaliya Katolik Universitetinin tələbəsi Emanuella Monenti hesab edir ki, şəhər meydanının öz ab-havasının qorunub saxlanılması çox vacibdir: “İnsanlar yüz illər öncə, texnika olmayan zamanda qayaların üzərində şəhər salıblar. Bu şəhər sanki qartal yuvasıdır. Təsəvvür edin, bu cür əngəllərə rəğmən şəhər salmağı bacaran insanların yaratdıqlarını dəyişsək, necə olar? Əlbəttə ki, o zaman qarşımızda Şuşanı deyil, başqa şəhəri görərik. Ümumiyyətlə, mən mühafizəkaram, düşünürəm ki, hər tikilinin ruhu qorunub saxlanılmalıdır. Ona görə də biz çalışırıq ki, meydanda yerləşdirilən hər bir detal mühitə uyğun olsun. Bu işdə bizə müəllimlər çox kömək oldu. Yəqin ki, *(onların da razılığı olarsa - gülür)* bundan sonra da qiymətli tövsiyələrini almağa davam edəcəyəm. Çalışacağam ki, burada tanıdığım müəllim və tələbələrlə əlaqələrim kəsilməsin”.

## “Azərbaycan memarlığının özəlliyi var”

Əslən Misirdən olan və iki nəsildir İtaliyada yaşayan İbrahim Dahab gördüklərini Karlo Bo Urbina Universitetindəki tələbə yoldaşlarına danışacağını bildirir: “Komanda yoldaşım Ləman Azərbaycanla, Şuşa ilə bağlı mənə çoxlu məlumat verdi. Ölkəniz çox gözəldir, həm də memarlıq baxımından əsrarəngizdir. Əlbəttə ki, İtaliya memarlığı əvəzolunmazdır, lakin Azərbaycan memarlığının özəlliyi var. Düşünürəm ki, memar olaraq Azərbaycan memarlığını öyrənməyim vacibdir. Burada yolun bir tərəfində Şərqi, digər tərəfində Qərbi, yolun başında isə bu iki istiqamətin ahəngini, möhtəşəm mənzərəni görürsən”.

Qeyd edək ki, Forumda AzMİU və İtaliyanın Oxford Universiteti, Verona Universiteti, Peruqia Universiteti, Milan Politexnik Universiteti, Karlo Bo Urbina Universiteti, Roma Sapienz Universiteti, Valensia Politexnik Universiteti, Berqamo Universiteti və Tusika Universitetinin tələbələri iştirak ediblər.

Layihənin yekununda sərgi keçirilib. Sərgidə Azərbaycan və İtaliya gənc memarlarının təxəyyülünün nəticəsi olaraq ərsəyə gələn və gələcəkdə Şuşa şəhərində tikilməsi mümkün olan sosial obyektlərin eskizləri nümayiş etdirilib. Böyük marağa səbəb olan sərgi daha çox ideya orijinallığı ilə yadda qalıb.

**Nicat ABDULLAYEV**






